# TARİX

**UOT 94(479.24)**

## QANUNİ HAKİMİYYƏT VƏ YA HAKİMİYYƏTİN QANUNİLƏŞDİRİLMƏSİNİN SOVET TƏCRÜBƏSİ

**Ş.R.MƏMMƏDOVA**
***Bakı Dövlət Universiteti***
***shalale01@yahoo.com***

*Məqalə 1920-1930-cu illərdə Sovet Azərbaycanını idarə etmiş bolşevik partiyasının siyasi hakimiyyətinin leqitimləşdirilməsi metodları və üsullarının təhlilinə həsr olunmuşdur. Siyasi hakimiyyətin legitimləşdirilməsi və leqallaşdırılmasında ideoloji vasitələrin, xüsusilə də təhsilin rolu, sovet hüquqi təfəkkürünün formalaşdırılması cəhdləri ön plana çəkilir.*

**Açar sözlər:** hakimiyyətin leqallaşdırılması, hakimiyyətin legitimləşdirilməsi, hüquqi təfəkkür, siyasi imic, siyasi təbliğat, hakimiyyət əfsanəsi

Son dövrlərdə dünya tarixşünaslığında hakimiyyət fenomeninin öyrənilməsində mühüm dəyişikliklər baş vermişdir. Uzun müddət tədqiqatçıların diqqət mərkəzində olan siyasi proseslər və onların «islahat» və «antiislahat», «liberalizm» və «konservatizm» prizmalarından qarşı-qarşıya qoyulması hakimiyyəti ənənəvi nöqteyi-nəzərdən öyrənməyə imkan verirdi. Müasir dövrümüzdə isə hakimiyyətin məhz bir fenomen, bir tarixi varlıq kimi tədqiqinə böyük ehtiyac duyulur. Alimlər hakimiyyət fenomeninin hərtərəfli araşdırılması üçün artıq müraciət edilmiş mənbələrdən və istifadə olunmuş metodoloji prinsiplərdən əl çəkərək, tədqiqatlara yeni baxış formalaşdırmağa cəhd göstərirlər. Hakimiyyətə yeni münasibət ənənəvi «siyasi ritorikanın verbal formasından», yəni aşağılardan yuxarılara doğru müxtəlif əlaqələr sistemindən qeyri-verbal kommunikasiya formalarına müraciət və onların öyrənilməsinə şərait yaratmışdı.

Keçən əsrin siyasi problemlərinin təhlili ali hakimiyyətin qanuniləşdirilməsinin olduqca mühüm əhəmiyyət kəsb etdiyini söyləməyə əsas verir. 1920-1930-cu illərdə Azərbaycanda formalaşmağa başlamış inzibati-amirlik sisteminin hüquqi bazasının yaradılmasında da hakimiyyətin qanuniləşdirilməsi önəmli yer tutub. Hakimiyyətin qanuniləşdirilməsi və ya legitimləşdirilməsi

olduqca mühüm məsələdir və istənilən hakimiyyətin mövcudluğu onun legitimləşdirilməsi səviyyəsindən asılıdır. Hakimiyyətin legitimləşdirilməsi, yəni əhalinin, kütlələrin mövcud hakimiyyətə inamının yaradılması və hakimiyyəti müdafiə etməsi hakmiyyətin effektivliyinin başlıca göstəricisidir. Məhz buna görə istənilən hakimiyyət xalqın inamını qazanmağa və onu stimullaşdırmağa çalışır.

Keçən əsrin ziddiyyətli sosial-iqtisadi və siyasi qarmaqarışıqlığı axarında siyasi hakimiyyəti ələ keçirən bolşeviklər bu hakimiyyətin qanuniləşdirilməsi üçün ilk vaxtlar «proletar diktaturası» və «fəhlə-kəndli hökuməti» mifindən istifadə edirdilər. Azərbaycan reallığına gəldikdə isə 1920-ci il aprel çevrilişindən sonra respublikada hakimiyyəti təmsil edən bolşeviklər «fəhlə-kəndli» hökumətini («proletar diktaturası» termini məlum səbəblər üzündən Azərbaycana uyğun gəlmirdi) bərqərar etdiklərini iddia edirdilər. Qurulmaqda olan, bərqərar olan rejim kimi qiymətləndirilən 1920-1930-cu illər siyasi hakimiyyəti yenicə güc toplamış quruluşun əsaslarının, fundamentinin qoyulması istiqamətində inkişaf etməli idi. Qeyd etmək lazımdır ki, uzun müddət həm sovet, həm də xarici tarixşünaslıqda 1920-1930-cu illər siyasi sistemi və rejimi inqilabaqədərki Rusiya tarixindən təcrid olunmuş halda təqdim və tədqiq olunurdu. Lakin son zamanlar keçən əsrin əvvəllərində əsası qoyulmuş və tarixi ədəbiyyatda ən çox Stalin rejimi adlandırılan siyasi sistemin Rusiyanın inqilabaqədərki dövrü, imperiya dövrü ilə sıx əlaqəli şəkildə tədqiqi üstünlük təşkil edir. Bu istiqamət müasir Rusiya tarixində özünü daha qabarıq göstərir (1). Bu baxımdan rus dövlətçilik ənənələrinin 1920-1930-cu illər Rusiya partiya-dövlət rejiminin formalaşmasındakı roluna xüsusi diqqət verilir. Alimlər bolşeviklərin geniş tətbiq etdikləri iqtisadiyyatın dövlətləşdirilməsi, dövlətin unitarlaşdırılması və federalizm prinsiplərindən imtina edilməsi kimi addımlarının məhz klassik rus dövlətçiliyi ənənlərindən olduğunu sübut etməyə çalışırlar. Bu nöqteyi nəzərdən Azərbaycanın 1918-1920-ci illər müstəqillik dövrü nəzərə alınmazsa, bolşeviklərin respublikada hakimiyyətə gəlməsi ilə hakimiyyətdə irsilik və ardıcıllıq prinsipinə tam riayət olunması qeyd olunmalıdır. Beləki, imperiya dövründə Rusiya ucqarlarından olan Azərbaycan bolşevik sistemində də müstəqillik ideyası ilə vidalaşmalı olmuşdu.

Azərbaycanda sovet rejiminin hüquqi bazasının formalaşması və sovet sisteminin qanuniləşdirilməsi prosesi tədricən, mərhələli şəkildə həyata keçirilmişdi. Bu tarixi proses 1920-ci il aprelin 8-də Azərbaycan Cümhuriyyəti parlamentinin ali hakimiyyətin İnqilabi komitəyə təhvil verilməsi haqqında qərarla başlandı. Təəssüf ki, respublika arxivlərində bu komitənin özünün nə zaman və hansı orqan tərəfindən yaradılması haqqında mənbələr aşkarlamaq mümkün olmamışdır. Məlumdur ki, 1920-ci il aprelin 27-də XI ordu dəstələri Azərbaycan sərhədlərini keçərkən Azərbaycan Cümhuriyyəti parlamenti tərkibində M.H.Hacınski, M.Ə.Rəsulzadə, Q.B.Qarabəyov, Ə.B.Səfikürdski, S.Ə.Ağamalı oğlu və Ə.b.Qardaşov olmaqla fövqəladə səlahiyyətlərə malik xüsusi nümayəndəlik yaratdı. Bu nümayəndəlik yeni yaranmış AK(b)P MK-sı

ilə siyasi hakimiyyətin təhvil verilməsi haqqında danışıqlar aparmalı idi. Bu nümayəndəlik, arxiv materiallarına görə, səlahiyyətlərin İnqilabi komitəyə (İK) verilməsi məsələsini müzakirə etmişdir. Bəzi tarixi əsərlərdə İnqilabi komitənin partiyanın 1920-ci il aprel plenumunda yaradılması haqqında məlumat verilir. Lakin bu informasiya arxiv materialları ilə təsdiq olunmur. Belə ki, AK(b)P MK-nın ilk plenumu aprel çevrilişindən iki ay sonra iyulun 23-də keçirilmişdir. Çox güman ki, Azərbaycan Cümhuriyyəti parlamentinin siyasi hakimiyyəti təhvil verdiyi İnqilabi komitə bolşeviklərlə danışıqlar aparılan zaman yerli bolşeviklərin təşəbbüsü, yaxud da mərkəzin qərarı ilə yaradılmışdır. Beləliklə, 1920-ci il aprel hadisələri zamanı Azərbaycanda siyasi hakimiyyətin təhvil verilməsi, yəni hakimiyyətin irsilik məsələsini izləmək mümkün deyil.

Hakimiyyətin legitimləşdirilməsi çox zaman hakimiyyətin özünə bəraət qazandırması prosesi və ya vasitəsi kimi qiymətləndirilir. Bu baxımdan istənilən hakimiyyətin legitimləşdirilməsinin bir neçə məlum metodu var. Hakimiyyətin legitimləşdirilməsi ilk növbədə siyasi hakimiyyətin xarakterindən asılıdır. Məs., əgər demokratik sistemlərdə hakimiyyətin legitimləşdirilməsi əhalinin sosial-iqtisadi rifahının yaxşılaşdırılması, qayda-qanunların möhkəmləndirilməsi və onlara total riayət olunması hesabına həyata keçirilirsə, totalitar və ya diktator rejimlərdə bu üsullar keçərli deyil. Sərt və ya təkhakimiyytəliliyin, təkpartiyalılığın mövcud olduğu siyasi şəraitdə hakimiyyətin legitimləşdiriməsi əsasən xarizmatik obrazların yaradılması və ideoloji vasitələrlə həyata keçirilir. Xarizmatizm siyasi liderin ideallaşdırılmış obrazının yaradılması və onun mif və əfsanələrlə möhkəmləndirilməsini ehtimal edir. İdeoloji təzyiq vasitələri də məhz bu imicin qorunmasına xidmət edir. Azərbaycan SSR-də ideallaşdırılmış Lenin və Stalin obrazı ümumtəhsil məktəblərində, ali məktəblərdə, elm ocaqlarında partiya və ictimai təşkilatların fəaliyyəti ilə təbliğ olunurdu. Həmin dövrdə nəşr olunmuş dərsliklərin, tarixi, ədəbi əsərlərin, ictimai elmlər sahəsindəki tədqiqatların mövzularının araşdırılması Lenin-Stalin obrazının ideallaşdırılaraq, böyüməkdə olan nəslin təfəkkürünə həkk edilməsi cəhdlərini açıq-aydın hiss etmək olar. Yerli liderlərin ideallaşdırılmış obrazına gəlincə burada iki şəxsin adı qeyd olunmalıdır - «şərqin Lenini» adlandırılan N.Nərimanovun və «ədalətli , cəsarətli bolşevik» adlandırılan M.C.Bağırovun. Sovet hakimiyyətinin qurulduğu ilk illərdə yerli azərbaycanlı əhaliyə qarşı keçirilən cəza tədbirlərinə sərt təpki verən, qeyri-millətlərin nümayəndələri qarşısında azərbaycanlıların hüquq və nüfuzunu qoruyan N.Nərimanov yoxsul təbəqənin ümumi məhəbbətini qazanmış bir liderə çevrilmişdi. Uzun müddət respublikaya rəhbərlik etmiş digər lider - M.C.Bağırovun da imicinə dərs vəsaitlərində rast gəlinmir. Bununla belə M.C.Bağırovun partiya lideri təyin olunduğu gündən respublikanın bütün ictimai-siyasi və sosial həyatını nəzarətdə saxlamaq cəhtləri, yerlərdən gələn məktub, teleqramm və qeydlərə operativ reaksiya vermə praktikası, incidilmiş, günahsız məhkum olunmuşların ona səmimi müraciətləri partiya katibinin

«ədalətli və səmimi kommunist» imicinin mövcudluğuna dəlalət edirdi. M.C.Bağırova gələn məktublar onun həqiqətən respublikanın bütün içtimai sferaları ilə məşğul olmaq və hər bir sahəni əhatə etmək cəhdlərinin olduğunu sübut edir. 1939-cu ildə onun ünvanına gələn məktublardan biri əsasında Bakı univermağının direktoru Şafirovun məsələsi müzakirə olunmuşdu. Sovet ticarətinin bütün çatışmayan cəhətləri, nöqsanları, bu sahədə olan küllü miqdarda yeyintiləri nəzərə alsaq, partiya liderinin ən kiçik ticarət nöqtəsinin məsələsi ilə belə maraqlanmasının səbəbini aydınlaşdıra bilərik (2).

Sovet hakimiyyətinin legitimləşdirilməsində təhsil və mədəniyyətin rolu misilsiz idi. Sovet ədəbiyyatının formalaşdırılması zamanı tarixi ənənələr və irsdən yalnız inqilabi işin məzmun və sturkturuna uyğun gələn əsərlərin təbliğinə geniş yer verilirdi. Bu baxımdan M.F.Axundov klassik nümunə ola bilər. Özünün fəlsəfi əsərlərində M.F.Axundov mürtəce rejimə, mütilik və ümidsizliyə, dinə və dini fanatitzmə qarşı mübarizəni ön plana çəkirdi. Sovet hökumətinin M.F.Axundova olan marağı da məhz bununla izah olunurdu. M.F.Axundov əsərlərinin geniş nəşri və təbliğatı dinə qarşı onun amansız mübarizəsi, köhnə əlifbanın ləğvinə çalışması, monarxiya üsuluna qarşı etirazı, insan azadlığının təcəssümü, Rusiya faktorunun şərq üçün olduqca xeyirli və gərəkli olması, Azərbaycanın Rusiya tərkibinə qatılmasının tarixi əhəmiyyət kəsb etməsini sübuta yetirməsinə cəhdi ilə şərtlənir.

Dövlət hakimiyyətinə münasibət M.F.Axundov yaradıcıdlığının dayaq nöqtəsini təşkil edirdi. XVIII əsrin 50-ci illərində (“Aldanmış kəvakib”) o, ağıllı və ədalətli, maarifpərvər monraxiyanın tərəfdarı kimi çıfxış edir, 60-cı illərdə (“Hind şahzadəsi Kəmalüddövlənin fars şahzadəsi Cəlalüddövləyə üç məktubu və axırıncının onlara cavabı”) o, konstitusiyalı monraxriyanın tərəfdarına çevrilir, 70-ci illərdə isə (Yek kəlmənin tənqidi) inqilabi hərəkatın təsiri altında maarif və tövsiyyələrin xalqların zülmünü azaltmayacağına əmin olaraq, xalqları zülümkarı güc yolu ilə devirməyə və öz idarə üsulunu qurmağa çağırır (3, 199).

Bolşevik hakimiyyətinin legitimləşdirilməsinin digər vasitəsi xalqın tarixi ənənələrinə cavab verən bir siyasi sistemin formalaşdırılması idi. Burada Rusiya alimlərinin 1920-30-cu illərdə SSRİ-də yaradılmış siyasi rejimin çar idarə-üsulunun davamı kimi, siyasi sistemdə irsilik prinsipinin qorunması kimi iddiaları ilə razılaşmalı oluruq. Beləki, çar Rusiyasında siyasi sistem təkhakimiyyyətli, patrimonial hakimiyyət kimi qiymətləndirilir. Bu sistem hakimin arzu və istəklərinin qanun şəklində formalaşması və onun iradəsinin müzakirəsiz qəbulu ilə xarakterizə olunur.

Bolşevik hakimiyyətinin imici təkcə partiya orqanları vasitəsi deyil, onun tərəfindən yaradılmış minlərlə ictimai təşkilat, dərnək, komitə və orqanlar vasitəsilə də təbliğ edilirdi. Pioner, komsomol komitələri, həmkarlar təşkilatı, mədəniyyət, təhsil, müdafiə və s. sahələrdə yaradılmış qurumların iclasları, həyata keçirdiyi tədbirlər, onların mətbuat vasitələri, nəşr olunan plakatlar, hətta nişanlar belə bolşevik hakimiyyətinin populyarlaşdırılmasına

xidmət edirdi. 1926-cı il iyunun 7-də partiyanın kommunist ali məktəblərində, fəhlə fakültələrində və texnikumlarda ictimai elmlərin tədrisi ilə bağlı qəbul etdiyi qərar da məhz bu istiqamətdə atılan addım idi. Qərarda göstərilirdi ki, elmi işin partiyanın qarşısında duran problemlərlə əlaqələndirilməsi, ictimai elmlərin tədrisinin gücləndirilməsi, bu elmlər üzrə imtahanların təşkili mühüm əhəmiyyət kəsb edir (4, 28-29) .

Sovet hakimiyyəti və kommunist partiyası qüdrətinin artırılmasında tarix elminin xüsusi xidmətləri qeyd olunmalıdır. 1931-ci ilin dekabrında tarixçi-marksistlər cəmiyyəti fraksiyasının iclasında müzakirə edilən məsələlər tarix elminin gələcək inkişaf istiqamətlərinin müəyyənləşdirilməsində mühüm rol oynadı. Əvvəla, qeyd etmək lazımdır ki, partiya tarixçi-marksistlər qarşısında Azərbaycan tarixinin yenidən yazılması və bunu partiya və sinfi mübarizə çərçivəsində edilməsi məsələsini qoymuşdu. Bu mənada indiyə qədər yazılmış tarixi kitablarda (5) ciddi nöqsanlar aşkarlanır. Kommunistlər tarix elmi qarşısında fərqli bir tarixin yaradılması məsələsini qoyurlar. Bu tarixdə sinfi mübarizə, xalqın tarixi, yoxsul insanların həyatı ön plana çəkilməli, çarlar və sülalələrin tarixinə cüzi yer ayrılmalıdır. Tarixin fundamental məsələləri marksist-leninçi konsepsiya, kommunist ideologiyası çərçivəsindən izah olunmalıdır. Azərbaycanda təhkimli kəndlilərin olması, iqtisadi və siyasi geriliyin mövcudluğu vurğulanmalıdır. Tarixi dərsliklərdə pantürkizm, islamçılıq ideyalarına, milli hərəkat və s. məsələlərə yer olmamalıdır. Tarix fəhlə hərəkatı, sinfi mübarizə, inqilablar tarixi olmalıdır. Kommunitslər yeni bir perdmetin, partiya tarixinin yaradılmasını və onun əsas fənnə çevrilməsi məsələsini qarşıya qoyurdular. Qeyd olunan iclasda çıxış edən M.N.Tixomirov tarixçilərin qarşısında aşağıdakı vəzifələrin durduğunu vurğulamışdı: «Tarix elmi MK-nın 31 dekabr qərarına əsasən bizdən tələb edilən işə qoşulmalıdır» (6, f.1, siy.5, iş 67, v.15). Marksist-tarixçilərin iclasında iştirak edən V.İ.Polonski öz çıxışında tarixin akademik izahdan çox, ümdə həyatla əlaqəyə ehtiyacı olduğunu vurğulayır. «Siz Marksdan sitat gətirəndə onu Leninlə, Sovet İttifaqının reallıqları ilə bağlamalısınız. Zaqafqaziya proletariatının mübarizə tarixini yazmalısınız» (7, f.1, siy.5, iş 67, v.33).

1928-ci il iyulun 7-də AzK(b)P MK yanında 26 komissarın tarixinin yazılması üçün keçirilən müşavirədə Bakı Kommunası hadisələrinin bərpasına cəhd edilir. Partiya tarixi institutunun nümayəndələri V.M.Kirşon və Y.A.Ratqauzerin sullarını cavablandıran A.Şaumyan, S.M.Əfəndiyev, H.Sultanov və b. öz çıxışlarında bolşeviklərin tamamilə fərqli bir imicini yaradırlar. V.M.Kirşonun «partiyadaxili diskussiyalar və qruplararası mübarizələr o dövrdə mövcud idimi?» sualına həmin hadisələrin şahidləri və iştirakçıları bir ağızdan «çox xırda mübahisələri nəzərə almasaq, heç bir ixtilaf və qarşıdurmalar yox idi» cavabı alınır. Bolşeviklər partityanın indiki vəziyyəti ilə analogiya gətirərək, 1918-ci ildə bolşevik partiyasında tam yekdilliyin olmasını sübut etməyə çalışırlar. Partiyanın lideri, düşünən beyni, strategi kimi S.Şaumyanı, onun vuran ürəyi kimi isə A.Caparidzeni təqdim edən iştirakçılar 1918-ci ildə

Bakıda yaranmış vəziyyəti belə təsvir edirdilər: «Aclıq idi, soyuq idi, biz fəhlələri çörəklə təmin edə bilmirdik, ona görə də onlar ingilislərin şəhərə dəvət olunmasının tərəfdarı idilər. Onlar belə hesab edirdilər ki, ingilislər gələn kimi çörək verəcəklər. Bizi isə onları qozla qidalanmağa vadar etməkdə günahlandırırdılar». S.M.Əfəndiyev öz çıxışında S.Şaumyanı ilahiləşdirərək, onu «peyğəmbər» adlandırmaqdan belə çəkinmir. Zaqafqaziya federasiyasının mövcud olduğu bir dövrdə Bakı kommunası dövrünün iştirakçıları S.Şaumyanın federasiyaya qarşı çıxdığını və Qafqaz xalqlarına heç bir müstəqilliyin və milli siyasətin lazım olmadığını iddia etdiyini vurğulayırlar: «S.Şaumyan hesab edirdi ki, Qafqaz xalqları rus dili vasitəsilə ümumi mədəniyyətə qovuşmalıdırlar» (8, f.1 siy.142. iş 32, v.1-9). Köhnə bolşeviklər yerli fəhlələr və kəndlilər arasında N.Nərimanovun və M.Əzizbəyovun böyük hörmətə malik olduğunu bildirir, xüsusən də N.Nərimanova hamının özününkü kimi baxdığını göstərirdilər. Bu çıxışlar və verilən suallar Partiya tarixini yaratmağa çalışan tarixçi-alimlərin hansı bir tarixi yaradacaqlarını aydınlaşdırmağa və bunun nə məqsədlə edildiyini anlamağa imkan verir.

Partiya rəhbər işçilər üçün təşkil olunan xüsusi yığıncaqlarda mühazirə və müzakirələrin əvvəlcədən müəyyən edilmiş ədəbiyyat siyahısına daxil edilmiş kitablar ətraında aparılmasına diqqət verirdi. Məs., 1937-ci il üçün təsdiq edilmiş siyahıya İ.V.Stalin, M.C.Bağırov, D.M.Molotov və başqalarının müxtəlif partiya yığıncaqlarında çıxışları, K.Marks, F.Engels, V.İ.Lenin və digərlərinin siyasi əsərləri daxil edilmişdi (9, f.1, siy.125, iş 521, v.90). Marksizm-leninizm klassiklərinin əsərlərinin rus dilindən Azərbaycan dilinə professional tərcüməsini həyata keçirmək üçün xüsusi tərcüməçi və redaktor qruplarının yaradılması zəruriliyi 1934-cü ilin fevralında AzK(b)P MK katibi M.C.Bağırovun iştirak etdiyi müşavirədə müzakirə edilmişdi. Söhbət Marksizm-Leninizm İnstitutu və Ali Partiya İnstitutunda 10-15 nəfərdən ibarət iki qrupun yaradılmasından gedirdi. Məsələnin MK-da, özü də birinci katibin bilavasitə iştirak etdiyi müşavirədə müzakirəsi onun nə dərəcədə əhəmiyyət kəsb etdiyini göstərir (10, f.1, siy.142, iş 64, v.15-168). Bolşevik hakimiyyətinin legitimləşdirilməsində təkcə tarix deyil, ədəbiyyatın da imkanlarından var gücü ilə istifadə edilirdi. Yazıçı və şairlərin xalq arasında nüfuz və hörmətindən istifadə edərək, partiyanın imicini möhkəmləndirməyə və onu populyarlaşdırmağa çalışan kommunistlər bu sahədə yalnız yeni nəslin nümayəndələrinə arxalanır, S.Rüstəm, Ə.Cavad, H.Cavid kimi yazıçılara kifayət qədər təsir edə bilmirdilər (11, f.1, siy.142, iş 70, v.37, 47). Püxtələşmiş sənətkarlar partiyanın sifarişi və buyruğu ilə yazmaqdan imtina edir, kütləvi yığıncaq və toplantılarda iştirak etmirdilər. Onlara qarşı təzyiqlərə üsyan etməkdən belə qorxmurdular. Müşavirədə iştirak edən C.Xəndan R.Rzanı Baş ədəbiyyat idarəsini çar senzurasından da pis idarə adlandırmaqda gunahlandırır (12, f.1, 29, siy.142, iş 70, v.40).

Hakimiyyətin təhlilində onun legitimləşdirilməsindən başqa leqallaşdırılması məsələsi də aktuallıq təşkil edir. Hakimiyyətin legitimləşdirilməsinə nisbətən onun leqallaşdırılması bir qədər asan və uzun sürməyən bir prosesdir.

Belə ki, əgər hakimiyyətin legitimləşdirilməsi hakim qüvvələr tərəfindən gərgin əmək və küllü miqdarda vəsait tələb edirsə, hakimiyyətin leqallaşdırılması, yəni hüquqi cəhətdən sənədlərdə möhkəmləndirilməsi o qədər də çətin deyil. Hakimiyyəti ələ keçirmiş bolşeviklərin hakimiyyətlərini leqallaşdırması müvafiq hüquqi sənədlərin və dövlət orqanlarının yaradılması ilə həyata keçirilirdi. Hakimiyyətin leqallaşdırılması ona xalq inamını qazandırmadığı üçün onun qiyməti də yüksək deyildi. Məhz buna görə bolşeviklər öz hakimiyyətlərinin leqqallaşdırılmasından çox legitimləşdirilməsinə diqqət verirdilər. Sovet təcrübəsində əvvəlcə bolşevik hakimiyyəti orqanları yaradılır, fəaliyyətə başlayır, sonra isə onların hüquqi bazası formalaşdırılırdı. SSRİ-nin digər respublikalarında olduğu kimi Azərbaycanda da sovet hakimiyyətinin leqallaşdırılması iki istiqamətdə həyata keçirilirdi: birincisi, yeni sovet qanunları və aktlarının yazılması və onların işləmə mexanizmlərinin müəyyənləşdirilməsi, yəni sovet qanunvericiliyinin yaradılması və ikincisi, sovet hüquqi təfəkkürünün formalaşdırılması.

Hüquqi təfəkkürün formalaşması mühüm olduğu qədər çətin bir prosesdir. Hüquqi təfəkkürün sturkturasına əsasən ideoloji, praqmatik-rasional və psixoloji komponentlər daxildir. Sovet hüquqi təfəkkürünün formalaşmasında ideoloji və psixoloji amillər üstünlük təşkil edirdi. Bunun bir neçə səbəbi var idi. Əvvəla, sovet hakimiyyəti qurulduqdan sonra geniş fəhlə və kəndli sinfinin siyasi hakimiyyətə və dövlət idarəçiliyinə cəlb edilməsi cəhdləri kütlələrdə bu dövlətin həqiqətən də yoxsulların dövləti olması fikrini möhkəmləndirirdi. Bu cəhətdən 1930-cu illərin sonlarına qədər sovetlərə keçirilən seçkilərdə xalqın aktivliyinin təmin edilməsi və səsvermə hüququndan məhrum edərkən, xüsusi ehtiyatlılıq göstərilməsi əhali içərisində sovet dövləti və bolşevik hakimiyyətinin demokratik, açıq və xalqa yaxın olmasını nümayiş etdirirdi. 1939-cu ildə Sovetlərə seçkilərə yekun vuran partiya bu sahədə əldə edilmiş «nailiyyətləri» «sadə xalqın dövlətin idarəçiliyinə qoşulması» kimi şərh edirdi. Bu seçkilərdə minlərlə fəhlə və kəndlinin iştirakı xalqda məhz dövlətin idarəçiliyində iştirak etmə illyuziyası yaratmaq cəhdi kimi qiymətləndirilməlidir. Bu kütləvi aksiya və kompaniyalar psixoloji eyforiya durumu yaradaraq, sadə xalqın geniş siyasi hüquqlara malik olduğunu göstərməli idi. 1939-cu ildə partiyanın verdiyi məlumata görə yerli kənd, qəsəbə, rayon və şəhər sovetlərinə 23.996 nəfər deputat seçilmişdi. Onların 8288 nəfəri qadın idi, deputatların 14661 nəfəri (yəni 61%) ilk dəfə deputat seçilmişdi. Əslində bu sovetlər və onlara seçilmiş deputatlar heç bir dövlət məsələsinin müzakirəsi və həllində iştirak etmir və həlledici səsə də malik deyildilər. Lakin kütləvilik və onu müşayət edən atributlar (deputat kitabçası, deputatların kitabçada qeyd olunan hüquq və səlahiyyətləri, onlar üçün yaradılmış bəzi imtiyazlar və s.) sadə kütlədə mühüm bir işdə iştirak etmə fikrini formalaşdırırdı.

Keçmiş hökumətdən qalmış məhkəmə işlərinə olan münasibət də sovet hüquqi təfəkkürünün hansı istiqamətdə formalaşdığını göstərən faktorlardan biridir. Xalq ədliyyə komisarlığının 1920-ci il may-noyabr hesabatında göstə-

rilirdi ki, «musavat hökumətindən 10890 məhkəmə işi qalmışdı. Sovet xalq məhkəməsi bu işlərə sosialist hüquqi təfəkkürü və ədaləti nöqteyi-nəzərindən baxır, onların həlli zamanı sovet hakimiyyətinin dekretlərini rəhbər tutur. Bu işlər keçmiş hüquq sistemi çərçivəsində ədalətli və qanunauyğun həll olunsalar da onlar inqilabi qanunvericiliyə zidd olduğu üçün ləğv edilir» (13, f.1, siy.1, iş 80, v.45-49).

Hüquqi savadı inkişaf etdirmək üçün konstitusiyaların ümumxalq müzakirəsinin təşkili, bununla əlaqədar yerlərə hazırlıqlı ziyalıların göndərilməsi, konstitusiyanın maddələri üzrə xüsusi mühazirələrin keçirilməsi bu istiqamətdə görülən tədbirlər sırasında idi. Sovetlərə seçkilər ərəfəsində xüsusi dərnəklər təşkil olunurdu. Bu dərnəklərdə «SSRİ Ali Sovetinə seçkilər haqqında qayda» mövzusunda mühazirələr dinlənilirdi. Bu dərnəklərə əhalinin yarıdan çoxu cəlb olunurdu (14, f.1, siy.125ş iş 511, v.8). Sovet qanunvericiliyinin əsasını təşkil edən siyasi və vətəndaş hüquqları, səsvermə hüququ və s. məsələlər üzrə buraxılan materiallar sovet hüquqi təfəkkürünün formalaşdırılmasında əvəzedilməz əhəmiyyətə malik idilər. 1923-cü ildə hazırlanmış belə materiallardan biri-«Kənd icraçısı» adlı məcmuə kənd soveti və dairə icraiyyə komitələrinin işçilərinin stolüstü kitabına çevrilmişdi. Məcmuədə sovetin mahiyyətindən tutmuş sovet seçki hüququ, kənd sovetlərinin vəziyyəti, kənd soveti sədrlərinin hüquq və vəzifələri və s. kimi məsələlərə aydın və anlaşılan dildə izahlar verilirdi (15, f.1, siy.125, iş 319. v.191) .

Sovet hüquqi təfəkkürünün formalaşmasında 1925-ci ilin mayında keçirilmiş III SSRİ Sovetlər Qurultayında qəbul edilmiş qərarlar mühüm əhəmiyyət kəsb edirdi. Sovetlərin işi və seçkilər məsələsinə toxunan SSRİ rəhbərliyi sovetlərin və digər dövlət sturkturlarının işində qeydə alınan nöqsanların əsas səbəblərindən biri kimi xalq kütlələrinin hüquqi savadının kifayət qədər olmaması və öz hüquqlarını bilməməsində görürdü: «Qurultay hesab edir ki, ən mühüm vəzifələrdən biri sovet qanunlarının düzgün hyata keçirilməsi və sovet inqilabi qanunvericiliyinin əsaslarının möhkəmləndirilməsidir. Bu vəzifə ikili xarakter daşıyan tədbirlərin həyata keçirilməsini nəzərdə tutur: inqilabi qanunvericiliyin pozulmasına qarşı mübarizəni və əhalinin qanunlarla və rəhbərliyin qeyri-qanuni hərəkətlərinə şikayət vermənin qaydaları ilə tanış edilməsini (16, 543-547). 1934-cü ildə Səlyan rayon partiya təşkilatının yoxlanılması zamanı aşkar edilmiş qanun pozuntularının aradan qaldırılması, bəzi işçilərə qarşı qeyri-obyektiv münasibət narazı şəxslərin birbaşa M.C.Bağırova müraciət etməsi və məsələyə aydınlıq gətirilməsi ilə nəticələnir. Səlyan rayon partiya komitəsi katibi Əmiraslanov həmin məktubda Zərgərovun ona qarşı gördüyü tədbirləri «qeyri-qanuni» adlandıraraq, şəxsi münaqişə zəminində yaranmış qarşıdurmaya milis orqanlarının cəlb edilməsinin «tamamilə yolverilməz olduğunu» qeyd edir (17, f.1, siy.9, iş 15, v.184-188). Nəinki məsul vəzifəli şəxslərin, həmçinin sadə insanların birbaşa ali rəhbərliyə müraciət etməsi və hətta cavab alması və tədbirlər görülməsi mümkünlüyü, insanların qanunlar və konstitusiya hüquqları çərçivəsində öz haqlarını tələb etmələri

hüquqi təfəkkürün lazımi istiqamətdə formalaşdırılmasından xəbər verir.

Sovet hüquqi təfəkkürünün formalaşmasında işlək vasitə kimi təbliğat-təşviqat orqanlarının işi mühüm əhəmiyyət kəsb edirdi. Partiya yarandığı və hakimiyyətə gəldiyi ilk gündən kütləvi informasiya vasitələrinin fəaliyyətini istiqamətləndirmək, xüsusi kütləvi tədbirlər təşkil etməklə bu məsələni yönəltməyə cəhdlər göstərirdi. Düzdür, 1920-ci illərin əvvəllərində bir sıra səbəblər üzündən bu sahədə böyük müvəffəqiyətlər əldə etmək mümkün deyildi. Təbliğat-təşviqat işində çalışa biləcək müsəlman kadrların, əhalinin kütləvi əlifba və siyasi savadsızlığı, təbliğat-təşviqat işi aparmaq üçün vasitələrin (ədəbiyyat, qəzetlər, plakatlar və s.), mərkəzlə sıx əlaqənin olmaması və s. faktorlar bu işi lazımi səviyyəyə qaldırmaq imkanı vermirdi. 1921-ci ildə Təbliğat-təşviqat işinin axsaması və bu sahədə olan ciddi nöqsanların qeyd edildiyi iki hesabat (Cəbrayıl və Nuxa qəzaları) xüsusilə diqqəti cəlb edir. Hesabatlarda göstərilirdi ki, «..bu sahədə işlərin yalnız kağız üzərində layihələri mövcuddur» (18, f.1, siy.2, iş 111, v.64, 68). Sovet hüquqi təfəkkürünün formalaşdırılmasında digər faktor kimi kütləvi partiya tədbirləri də qeyd olunmalıdır. Məsələn, Kəlbəcər rayonunda kütləvi partiya tədbirləri sırasında velosiped yarışlarının keçirilməsi, spartakiadanın təşkili, kolxoz hamamlarının tikintisi kimi işlər qeyd olunurdu. Hesabatda göstərilirdi ki, bu tədbirlər kolxozlararası yarışların təşkili, kənd sovetləri arasında birinciliyin müəyyənləşdirilməsi məqsədi daşıyırdı (19, f.1, siy.9, iş 171, v.106). Əslində isə bu tədbirlər insanların kütləvi olaraq konkret tədbirlərə qoşulması və onların maraq və diqqətlərinin ümumi işə yönəldilməsi, birlik, ümumilik abı-havasının yaradılması məqsədi daşıyırdı. Bu isə öz növbəsində kollektiv psixologiyanın idarə olunmasının effektiv vasitələrindən biri idi.

Sovet adamlarını məhkəmə sistemi, məhkəmələrin iş üslubu, təşkili və keçirilməsi ilə tanış etmək məqsədilə partiya yerlərdə ailə, məişət və qadın məsələləri üzrə nümunəvi məhkəmə iclaslarının keçirilməsinə mühüm əhəmiyyət verirdi. Sovet məhkəmələrində inqilabi qanunvericiliyin populyarlaşdırılması məqsədilə məhkəmə işçilərinin kənd və dairə yığıncaqlarında çıxışları təşkil edilirdi (20, f.1, siy.142, iş 25, v.39).

Sovet hökumətinin leqallaşdırılmasında insanların uyğun təfəkkürünün formalaşdırılması da mühüm əhəmiyyət kəsb edirdi. Azərbaycanda sovet hakimiyyətinin qurulduğu ilk dövrlər bu proses kommunist ideyalarının sistematik və bütün istiqamətlərdə təbliği, yerlərə xüsusi təbliğat-təşviqat briqadalarının göndərilməsi, müxtəlif mədəniyyət tədbirlərinin keçirilməsi və s. vasitələrlə reallaşdırılırdı. 1921-ci ilin noyabrında «26-lar adına» təbliğat qatarının təşkili buna misal ola bilər. Qatar Azərbaycanın bir sıra rayonlarını gəzərək, müxtəlif mitinqlər, yığıncaqlar təşkil edir, kommunistlərin həyatını əks etdirən filmlər nümayiş etdirirdi. Bu tədbirlərə xalq arasında böyük nüfuz qazanmış mədəniyyət xadimləri, şairlər, bəstəkarlar və s. cəlb olunurdu. 1920-ci ilin dekabrından 1921-ci ilin 5 noyabrına kimi Ağstafa məntəqəsində olan «26-lar adına» təbliğat qatarı 6 konsert, çoxlu sayda mitinqlər təşkil etmiş,

ümumi iclas çağırmışdı. İclasda «III Kominternin II Konqresi» adlı film nümayəiş etdirilmişdi. Keçən əsrin əvvəlləri üçün Azərbaycan qəzalarında böyük yenilik olan bu tədbirlər sadə əhalinin marağını cəlb edir, onun sovet hökumətinin qüdrətinə, gücünə inamını artırırdı (21, f.1, siy.2, iş 166, v.153).

Sovet təfəkkürünün formalaşdırılmasının digər işlək vasitəsi kommunist məsləkini, bolşevizm ideyalarını təbliğ edən ədəbiyyatın, mətbuat vasitələrinin nəşrinin təşkili və yayımı idi. 1920-ci ildən başlayaraq, Azərbaycan ərazisində nəşr olunacaq bütün vəsaitlər bilavasitə MK-nın təsdiq etdiyi siyahı əsasında həyata keçirilirdi. 1920-ci il 21 oktyabr tarixində tərtib edilmiş belə siyahılardan biri aşağıdakı kitabları daxil edildi: Leninin əsərləri, Kommunitslərin döyüş mahnıları, P.Ivanov «Sovet hakimiyyəti Rusiyada nə etdi», S.Minin «Kommunistlər kimlərdir», N.Lukin «Kilsə və dövlət», A.M.Kollontay «Kommunist dövlətinin ailəsi», inqilabi mövzuda plakatlar, çağırışlar və vərəqələr və s. (22, f.1, siy.2, iş 166, v.196). Tərcümə mərkəzlərinin işi də məhz bu siyahılarla nizamlanırdı. 1921-ci il üçün rus dilindən türk dilinə tərcümə olunacaq ədəbiyyat siyahısına aşağıdakılar daxil idi: K.Marks, F.Engels “Manifest”, K.Kautski, V.Lenin, M.P.Pokrovskinin əsərləri, İ.Stalinin «Milli məsələ və marksizm» əsəri, Frigenin «Rusiyada fəhlə hərəkatının tarixi» əsəri, Mendelsonun «Paris kommunası, mənşəyi, əhəmiyyəti» əsəri və s. (23, f.1, siy.2, iş 166, v.177). Nəşr olunan marksist ədəbiyyatın partiya işçiləri və sovet qulluqçuları arasında, fəal partiyaçılar və komsomolçular arasında paylaşdırılması da bilvasitə partiya rəhbərliyi tərəfindən nizamlanırdı. 1922-ci ildə MK katibi Ə.H.Qarayevin imzası ilə bütün qəza, dairə, kənd partiya təşkilatı rəhbərlərinə ünvanlanan məktubda göstərilirdi: «SSRİ Dövlət Nəşriyyatının Siyasi idarəsi yerli dövlət mədəni-maarif və partiya təşkilatlarının çoxsaylı tələblərini nəzərə alaraq, marksist klassikləri əsərlərinin geniş yayımını təşkil edərək, Azərbaycanda da böyük kompaniya açmışdı» (24, f.1, siy.2, iş 166, v.259). Məktubda MK-nın tövsiyəsi açıqlanırdı: bütün məsul işçilər və bütün partiya üzvləri arasında marksist əsərlər komplektinə kollektiv və ya fərdi yazılma kompaniyası keçirmək; hər partiya kitabxanası üçün komplekt əldə etmək. Marksist əsərlər komplekti 100 kitabdan ibarət idi və 250 qızıl rubl məbləğində qiymətləndirilmişdi.

Qeyd etmək lazımdır ki, hakimiyyətin qanuniləşdirilməsi ilk növbədə siyasi hakimiyyətin möhkəmləndirilməsinə yönəlmişdi. Siyasi hakimiyətin möhkəmləndirilməsi üçün istifadə edilən üsul və vasitələr eyni zamanda əhali arasında etibarın, inamın qazanılması deməkdir. Bolşeviklərin siyasi hakimiyyətinin möhkəmləndirilməsi ilk növbədə onların hakimiyyətinin keçmiş imperiya sərhədlərində yayılması və gücləndirilməsini nəzərdə tuturdu. Azərbacan SSR-də bu proses bir il ərzində həyata keçirilsə də, bolşeviklərin respublikanı tam nəzarətə alması üçün bir neçə il lazım oldu. Bolşevik siyasi hakimiyyətinin Azərbaycanda yayılması yerlərdə əvvəlcə yoxsul komitələrinin, sonra isə Sovetlərin yaradılması ilə müşayiət olunurdu. Hakimiyyətlərini gücləndirmək üçün bolşeviklər siyasi sistemin optimallaşdırılması və ya öz məqsəd və

vəzifələrinə yaxınlaşdırılmasına can ataraq, bütün ölkəni fövqəladə komitələr, üçlüklər və komissiyalarla əhatə etdilər. Fövqəladə rejim bolşeviklərə dövlətin, partiya qurumlarının və hətta seçki sisteminin fövqəladə rejimə salınmasına imkan verdi. Yerlərdə sosialist ədalətini bərqərar etmək üçün üçlüklərə geniş səlahiyyətlərin verilməsi, məhkəmə qərarı olmadan vətəndaşların ən ali cəzaya- güllələnməyə məhkum edilməsi imkanı, aşağı dövlət və partiay qurumlarının yuxarı instansiyalara tabeçiliyi bu sistemi bolşeviklərin idarə üsulu və siyasi məqsədlərinə yaxınlaşıdıran xüsusiyyətlərdən idi.

## ƏDƏBİYYAT


1. Власть и реформы: от самодержавной к советской России / Под ред. Ананьич Б.В. СПб., 1996, 294 с.; Кром М.М. Политическая антропология: новые подходы к изучению феномена власти в истории России // Исторические записки. М.: 2001, 477 с.; Пивоваров Ю.С. Власть, собственность и революция в России: проблемы анализа в контексте методологических сдвигов современной науки // Историк во времени. Третьи зиминские чтения. Доклады и сообщения научной конференции. М.: РГТУ, 2000, 171 с.
2. Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsi Siyasi Sənədlər Arxivi (ARPİİSSA), f.1, siy.53, iş 14, v.210
3. Ахундов М.Ф. Избранные философские произведения. Баку: Азернешр, 1982, 340 с.
4. КПСС в резолюциях и решениях съездов, конференций и пленумов. ЦК. М.: Политическая литература, 1984,т.5, 446 с.
5. Пахомов Е.А. Краткий курс истории Азербайджана: с приложением экскурса по истории Ширваншахов XI-XIV веков. Баку: АзФАН, 1923, 48 с.;. Сысоев В.М. Краткий очерк истории Азербайджана (Северного). Баку: Наркомпрос АССР, 1925, 143 с.
6. ARPİİSSA, f.1, siy.5, iş 67, v.15
7. ARPİİSSA, f.1, siy.5, iş 67, v.33
8. ARPİİSSA, f.1 siy.142. iş 32, v.1-9
9. ARPİİSSA,f.1, siy.125, iş 521, v.90
10. ARPİİSSA, 10, f.1, siy.142, iş 64, v.15-168
11. ARPİİSSA, f.1, siy.142, iş 70, v.37, 47
12. ARPİİSSA, f.1, 29, siy.142, iş 70, v.40
13. ARPİİSSA, f.1, siy.1, iş 80, v.45-49
14. ARPİİSSA, f.1, siy.125ş iş 511, v.8
15. ARPİİSSA, f.1, siy.125, iş 319. v.191
16. Собрание законов и распоряжений рабоче-крестьянского правительства Союза ССР. 1925 г. Отдел опубликования законов Управления делами совета народных комиссаров СССР. М.: 1926, № 35, 1221 с.
17. ARPİİSSA, f.1, siy.9, iş 15, v.184-188
18. ARPİİSSA, f.1, siy.2, iş 111, v.64, 68
19. ARPİİSSA, f.1, siy.9, iş 171, v.106
20. ARPİİSSA, f.1, siy.142, iş 25, v.39
21. ARPİİSSA, f.1, siy.2, iş 166, v.153
22. ARPİİSSA, f.1, siy.2, iş 166, v.196
23. ARPİİSSA, f.1, siy.2, iş 166, v.177
24. ARPİİSSA, f.1, siy.2, iş 166, v.259

## ЛЕГИТИМНАЯ ВЛАСТЬ ИЛИ СОВЕТСКИЙ ОПЫТ ЛЕГИТИМАЦИИ ВЛАСТИ

**Ш.Р.МАМЕДОВА**

### РЕЗЮМЕ

Легитимация власти является основным критерием эффективности любой политической системы. В демократических, открытых, гражданских обществах легитимация власти осуществляется за счет преобразований социально-экономического характера и гуманизации правовых нормативов. Наоборот, в тоталитарных, авторитарных режимах легитимации высшей власти добиваются с помощью идеологического воздействия и карательно-репрессивных методов. Данная статья посвящена основным методам и средствам легитимации власти большевиков в первые годы установления Советской власти в Азербайджане. Анализируя деятельность Азербайджанской Коммунистической партии большевиков, основные правовые документы, регулирующие политическую систему страны, автор выделяет важные направления в легитимации и легализации политической власти, показывает приоритетные сферы в этом вопросе.

**Ключевые слова:** легитимация власти, легализация власти, юридическое мышление, политический имидж, политическая пропаганда, миф власти

## LEGAL POWER OR SOVIET EXPERIENCE OF LEGITIMIZATION OF POWER

**Sh.R.MAMMADOVA**

### SUMMARY

Legitimization of power is the main criteria of any political system. In democratic, open and civil societies legitimization of political power realizes due to the socio-economical transformation and juridical reorganizations. In totalitarian and authocratic regimes it happens because of the ideological impact, repressive and punitive sanctions. The article devotes to the principle methods and means of legitimization of the Bolshevik authority in Azerbaijan in the first two decades of establishment of the Soviet power. Analysing the activity of Azerbaijan Communist Party, as well as the important documents regulating the political system in the country, the author describes main directions in legitimization and legalization of the political power, and shows the priorities of this question.

**Key words:** legal power, legitimization of power, juridical intellection, political image, political propaganda, myth of power